Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Münhen debatından sonra Ermənistan beynəlxalq təzyiqlərin labüd şəkildə artacağından möhkəm narahatdır...

**Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Münhendə keçirilən debatlardan artıq bir neçə gün keçsə də, məsələ hələ də geniş müzakirə predmeti olaraq qalmaqda davam edir. Ermənistanın prosesə yanaşmasından belə bəlli olur ki, Münhen debatından sonra düşmən ölkə ona qarşı diplomatik təzyiq və hücumların daha da artacağından ciddi narahatlıq ifadə edir.**

Burada hesab edilir ki, əslində, Münhen debatı Ərəmnistana qarşı diplomatik təzyiqlərin işə salınması baxımından Azərbaycan üçün mühüm bir cəbhə oldu. Çünki məhz burada Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın nə qədər əsassız bir mövqedə olması bütün dünyanın gözü qarşısında bir daha öz təsdiqini tapmış oldu. Ermənistanın "politik.am" nəşri də yazır ki, Paşinyanın Münhen debatında yol verdiyi səhvlər ölkəyə Qarabağ məsələsində baha başa gələcək: "Xülasə etməyə çalışsaq, Paşinyanın İlham Əliyevlə məlum Münhen debatına yekun vurmalı olsaq, o zaman onun çox səhvlərə yol verdiyi ortaya çıxar. 1. Əvvəla, Qarabağ münaqişəsinin həlli məsələsinin bu formatda müzakirə edilməsi göstərdi ik, konflikt tərəfləri məhz Ermənistan və Azərbaycandır. Qarabağ rejiminin burada tərəf olmadığını dünya aydın gördü. 2. Paşinyan ümumiyyətlə hazır deyildi, onun timsalında münaqişənin ilkin başlama tarixçəsi barədə məlumat verilmədi, ritorika sənəti axsayırdı. Əvəzində, Azərbaycan tərəfi daha inamlı davrandı. 3. Müzakirə dilini seçmək də səhv bir seçim idi. Paşinyan erməni dilində nitqi zamanı bəzi boşluqları neytrallaşdıra bilərdisə, ingilis dilində zəif çıxış etməsi bəzi problemlərə səbəb oldu. Paşinyanın ingilis dili biliyi zəif idi, bu da ingilis dilini daha yaxşı bilən İlham Əliyevə üstünlüklər qazandırdı. 4. Paşinyan Xocalı hadisələrini səhv şərh etdi, BMT-nin qətnamələri ilə bağlı İlham Əliyevə yaxşı müqavimət göstərə bilmədi. 5. Bundan başqa, Paşinyanın buraxdığı başqa bir yanlışlıq ona baha başa gəldi. Belə ki, o, Qafqaz bürosunun qərarından danışarkən Dağlıq Qarabağın Azərbaycana verildiyini dedi və daha sonra sözünü düzəldərək Ermənistana verildiyini bildirdi. Bu səhv Azərbaycan mediasında və sosial şəbəkələrdə Paşinyana qarşı istifadə olundu. 6. Həmçinin, Ermənistan baş nazirinin Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə erməni müəllif tərəfindən yazılan kitaba istinad etməsi müsbət hal deyil. Çünki münaqişə tərəflərindən birinin yazdığı kitab (kitabın müəllifi Şahen Avakyandır) beynəlxalq ictimaiyyət tərəfindən obyektiv qarşılanmayıb".

Elə rusiyalı siyasi ekspert Dmitri Fetisov da Münhen debatından sonra Ermənistanın ciddi zərbələr aldığını vurğulayır: "Münhen görüşünü diqqətlə izlədim və görüş faktının özü sevindirir. Burada Nikol Paşinyana iradlar daha çoxdur, çünki İlham Əliyev mütəmadi olaraq danışıqlara hazır olduğunu göstərib. Ancaq Paşinyanın hakimiyyətə gəlməsi ilə danışıqlar prosesi əhəmiyyətli dərəcədə yavaşlayıb. Birmənalı şəkildə İlham Əliyevin sonuncu görüşdə üstün olduğunu söyləyən ekspertlərlə razılaşıram. Bu həqiqətən də belədir. Azərbaycan prezidentinin böyük siyasi və diplomatik təcrübəsi var, Nikol Paşinyanda isə bunlar yoxdur. Hazırkı Ermənistan lideri heç vaxt diplomatiya ilə məşğul olmayıb, o, populizmlə məşğul olmağa öyrəşib. Azərbaycan prezidentinin mövqeyi dəqiq və təsdiqlənmiş haldadır. Ermənistanın baş nazirinin isə mövqeyi, sadəcə yoxdur. İrəvanın mövqeyinin maksimal dərəcədə qeyri-müəyyən olmasına çalışmaqla, Nikol Paşinyan Qarabağ mövzusunu öz siyasi maraqları naminə istifadə etməyə davam edir. Nikol Paşinyan müzakirə zamanı bir dəfə də olsun Dağlıq Qarabağı "Arsax" adlandırmayıb. Buna görə də Ermənistanda onu ittiham edirlər. Axı erməni tərəfi dünya ictimaiyyətinin "Arsax"ın nə olduğunu öyrənməsi üçün o qədər güc sərf etmişdi. Lakin Münhendə bu alınmadı. Nikol Paşinyan çox gözəl başa düşdü ki, dünyada onu başa düşməyəcəklər. "Arsax" nədir? Yerli sakinlərdən başqa heç kim bunu anlamır və bilmir. İstənilən halda Ermənistanda Münhen zərbələrini uzun müddət unutmayacaqlar".

Bundan başqa, Münhendə Paşinyanın istinad mənbələrinin də yalan olmasına dair yeni faktlar İrəvanı daha da çıxılmaz bir duruma salır. Belə ki, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Nikol Paşinyan Xocalı soyqırımı ilə bağlı danışarkən Azərbaycanın eks-prezidenti Ayaz Mütəllibova "istinad etmişdi":"90-cı illərin ortalarında Azərbaycanın keçmiş prezidenti Ayaz Mütəllibov Rusiyanın "Arqumenti i Faktı" qəzetinə müsahibəsində bildirmişdi ki, Xocalıdakı təxribat onu hakimiyyətdən uzaqlaşdırmaq üçün Azərbaycan müxalifəti tərəfindən hazırlanmışdı". Lakin Azərbaycan Prezidenti İlham Əliyev buna qətiyyətlə cavab verərək, onun iddialarının əsassız olduğunu bildirdi. Bunun ardınca "Arqumentı i Faktı" qəzetinin özü də Paşinyanın panel müzakirəsində Azərbaycanın birinci prezidenti Ayaz Mütəllibovla bağlı səsləndirdiyi fikirlərə münasibət bildirib. Nikol Paşinyana müraciət edən qəzet Ayaz Mütəllibovun 1995-ci ildə verdiyi müsahibədə Xocalıda baş verən qətliamla bağlı heç nə demədiyini bildirib. Bu faktın özü də Paşinyanın mövqeyinin sırf yalan üzərində qurulmasının növbəti vacib təsdiqi sayılır.

Başqa bir məsələ Paşinyanın "erməni hökmdarı" Böyük Tiqrana "sığınması" ilə bağlıdır. Tarixdə heç də böyük sərkərdə kimi xatırlanmayan Tiqranın ermənilərə heç bir aidiyyətinin olmadığı bəllidir. Bəzi elmi araşdırmalara görə Tiqran sak, bəzilərinə görə isə parfiyalıdır. Ancaq məsələ həm də burasındadır ki, Paşinyanın özü də Tiqrana qarşı qətiyyən müsbət mövqedə olmayıb. Nikol Paşinyan özünün redaktoru olduğu "Aykakan Jamanak" qəzetində 9 dekabr 2005-ci ildə çap etdirdiyi bir məqalədə qeydə aldıqları da bunu təsdiq edir. Burada o yazır: "Erməni xalqına siyasi və elmi tribunalardan edilən ən populyar müraciətlər tarixdən dərs çıxarmaq zərurətinə aid edilir. Erməni xalqı öz ziyalısına qulaq asmaqdan qəti şəkildə imtina edir və tarixdən nəticə çıxarmaqla bağlı çağırışların getdikcə daha populyar olması da bundan xəbər verir. Ola bilər ki, buna səbəb tarixdən nəticə çıxarmağa çağıran ziyalının daha sonra erməni xalqının qəhrəmanlıq tarixi barədə əfsanələr yazmağa, əcdadlarımızı tərif etməyə və ucaltmağa başlamasıdır. Ümumiyyətlə isə, əcdadlarımızı obyektiv qiymətləndirmək bir iş, onları tərifləmək tamam başqa işdir. Gəlin, əcdadlarımızı tərifləməyi dayandıraq və özümüzə çox praqmatik bir sual ünvanlayaq: bu əcdadlarımız bizə nə vəsiyyət etdi, özlərindən sonra nə qoyub getdilər? Heç bir şeydən daha artıq bir şey… Mən bizim atalarımızı qınayıram və onları lənətləyirəm. Çünki onlar bizim bu gün daha ləyaqətli və qürurlu yaşamağımız üçün heç bir şey etməyiblər. Bizim əcdadlarımız, ən azından, öz nəsillərinin qeydinə heyvanların instinktiv şəkildə öz nəsillərinin qeydinə qaldığı kimi də qalmadı. Mən bizim əcdadlarımızı tərif edən hər kəsi qınayıram. Bununla da sadəcə bundan sonrakı nəsillərin layiqli və güclü vətənə sahib olmaq hüququnu inkar edir, bizə, yaşayanlara isə gələcək nəsillərə heç bir şey vəsiyyət etməmək haqqını bəxş edirlər. Əcdadlarımızı tərənnüm etməklə onlar indiki erməni məmurlarının təkəbbürlü gədəçələri kimi primitiv, tərbiyə almamış oğlunun xəyanətinə məruz qalan Böyük Tiqran adlandırılan şəxsin öz tacını Roma hökmdarının ayağı altına atdığı həmin vaxtdan başlayan və artıq iki min ildən artıqdır ki, içində olduğumuz bu sonsuz prosesə sadəcə yeni təkan verirlər…Bəzən bizim biabırçı və alçaldıcı keçmişimizi qəhrəmanlıqlarla dolu kimi göstərən tarixçiləri anlayıram. Onlar həqiqi tarixin bizi sındıra, alçalda biləcəyini düşünürlər. Ancaq saxtakarlıq daha çox dağıntıya səbəb olur və bizə dayanmağa, minillik alçaldılmamızı qırmağa icazə vermir".

Paşinyanın özünün bu yanaşması onun əcdadları, o cümlədən həmin əcdadlarından biri saydığı Tiqrana qarşı mövqeyini aydın surətdə meydana qoyur. Məhz bu fonda onun Münhendə Tiqrana "sığınması" Ermənistanın özündə belə ikiüzlülük kimi qiymətləndirilir. Təbii ki, belə vəziyyətdə Paşinyan və digərlərinin Azərbaycan qarşısında duruş gətirməsi də mümkünsüzdür. Çünki erməni tərəfinin bütün arqumentləri sırf yalan üzərində qurulub və qəbul olunmur. Bu fonda Münhen görüşündən sonra daha çox sayda erməni anlamağa başlayıb ki, Azərbaycan rəhbərliyi çox güclüdür və bu ölkə prezidentinin siyasi, ideoloji, diplomatik, mənəvi-əxlaqi səviyyəsi Ermənistan dövlət başçısından dəfələrlə üstündür. Azərbaycan tərəfinin qətiyyətli mövqeyi qarşısında erməni tərəfi birmənalı şəkildə duruş gətirə bilməz. Bu durumda Dağlıq Qarabağ münaqişəsinin həlli modelinin işə salınmasına razılıq verməklə Ermənistan özünü də xilas edə bilər və Münhendəki kimi biabırçı duruma düşməz.

Bu modelə əsasən, öncə Dağlıq Qarabağ ətrafındakı rayonların işğaldan azad edilməsi və erməni silahlı qüvvələrinin oradan çıxması, sonra öz yurdlarından didərgin düşən azərbaycanlıların evlərinə qaytarılması mühümdür. Ardınca kommunikasiyaların açılması, sabitlik yaranandan sonra isə Azərbaycan qanunları çərçivəsində bölgənin statusunun Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində həll edilməsi baş tutmalıdır. Elə Münhendə bu mövqe bir daha ən yüksək səviyyədə diqqətə çatdırıldı. Ermənistan bundan lazımi nəticələr çıxarmasa, daha çox diplomatik, ardınca isə sərt hərbi məğlubiyyətə məruz qalacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**